# Hatəm CABBARLI - 50

*Düşmən bizi öyrənib,biz düşməni öyrənək,*
*Nə deyirlər arxadan dilin bilək,dinləyək.*

Sevindik Nəsiboğlu



Hatəm Cabbarlı. İndi haqqında yazdığım şəxsiyyət düşmənlərin arasından düşmənlərə qarşı çıxaraq çıxıb. Uşaq vaxtından hiss edib erməni xislətini, ona qarşı uşaqlıqdan mübarizə aparıb. Uşaqlıqda erməni dilində danışan bir erməni görüb, lakin nə dediyini başa düşməyib. O erməni ilə danışıb, erməni isə onun dilini başa düşüb. Bu uyğunsuzluğu uşaqlıqdan başa düşürdü balaca Hatəm. Nə qədər biri hərbçi olmaq istəsə, asanlıqla ermənilərin nə edəcəyini bilər, kəşfiyyatda hətta özünü azur, öyrənmək istəsə dəermənі dilini, erməni xisləti imkan vermirdi, ermənilər özləri öyrətmək istəmirdilər ki, sonradan onlara qalib gəlsin Hatəm. Elə Hatəm dili bilərkən də qalib gəldi, bilməyəndə də. Hatəm "şdağases", "has" kimi asan erməni sözündən başlayaraq "ornek" kimi tarixi erməni sözlərinə qədər hamısını öyrənməyi, tədqiqatlar apararaq, erməni dilçilərinin kitabını oxuyaraq bu maneəni dəf etməyi bacardı. İndi onun sayəsində erməni dilini bilənlərimiz var. Universitetin ermənişünaslıq bölməsində yüzlərlə gənc artıq erməni dilini bilir. Artıq bununla həmin igidlərdən ya da aznavur kimi göstərərək ermənilərin arasına sıza bilər. Bu bir dezavantaj deyil, düşmənin dilindən hamımızın zəhləsi gedir, lakin erməni dilini bilib onun əməllərini ifşa etmək lazımdır. Bu daha da avantajdır, erməni dilini bilən əsgər asanlıqla bilər erməni nə təxribatlar törədəcək. Buna bir nümunə (örnək demədim, örnək erməni sözüdür, orinak sözündən yaranıb)də var. Osmanlı komandiri Mömin Aksoy özünü vətən xaini kimi göstərərək yunan komandanlarının arasına sızmışdı və beləcə, İzmiri azad etməyin yolunu asanlaşdırmışdı. Hər gün onun evinin pəncərəsini daşlayırdılar, lakin, o dözürdü, Azad İzmir, Azad Türkiyə üçün dözürdü. İndi əsgərlərimiz də Mömin Aksoyu özünə ideal bilsələr və onun kimi etsələr Qarabağı qaytarmağın həsrəti illər çəkməyəcək. Hatəm Cabbarlı erməni dilini öyrənib və öyrədib, Qarabağın işğaldan azad edilməsinə silahsız şərait yaradır. Ermənilərin ən böyük qorxusu bizim onların dilini öyrənməyimizin avantajına sahib olmağımızdır, erməni istər Rəvanda (indiki yerevan) olsun, istər Nyu-Amsterdamda (indiki Nyu-York) olsun, bir adamla qarşılaşanda istər istəməz bu sualı səsləndirəcək:

"-Barev (Salam). İn Çqa Çqa? (Necəsən) Şdğases? (Haralısan?) Hayes Turkes? (ermənisən, yoxsa türksən?)".

Əgər o "hayes" desə, hay onu hay-hay" deyib qəbul edəcək, əksinə desə sənlə pis münasibət saxlayacaq. O da düşmənə kimliyini göstərib "torkes" yox, "Türkəm" deyəcək!

Hatəm Cabbarlı barədə informasiya əldə edərkən onu Cəfər Cabbarlının soyundan sandım. Lakin, o, amal sarıdan, mənlik sarıdan Cəfər Cabbarlıya oxşayır. Cabbarlı 1905-ci ildə pyesində xalqımızla erməniləri dost kimi göstərir, yəni savadsızlıq adlı həqiqəti yazır, Hatəm müəlim isə bu savadsızlığı bilgəliyə döndərmək üçün əlindən gələni edir. Hatəm müəllimlə bütün türklərin düşməni təkcə torpaqlarımızı işğal edənlər, silah tətbiq edənlər deyil, həm də Avamlıqdır!Cəhalət əzraildir!

Əsgər olmadan da Qarabağ uğrunda döyüşmək olar, Siz bunu öyrədənlərdən oldunuz bizə!-Kaş 1905-ci ildə də Novruzəli kimi savadsızlar yox, Sizin kimi bilgələr olaydı ki, biz düşmənimizə qalib gələydik!

Hatəm Cabbarlı erməni dili və ermənişünaslıq barədə bir neçə kitablar yazıb. O kitabı oxumayanlar bəlkə var, bəlkə yox. Təəssüflər içində həqiqəti deyirəm ki, mən o kitablardan heç birini oxumamışam. Təkcə mənim oxumağım lazım deyil. Təkmən azad etməyəcəm Qarabağı, bunu təkcə əsgərlərimiz də etməyəcək!Qarabağı Hatəm Cabbarlı və Hatəm Cabbarlı kimi dilçilər, əsgərlərimiz, qəhrəman xalqımız, vətən fədailəri və birdə mən... kimi silahla, kimi biliyi ilə, kimi sözü, ürəyi ilə, hamımız əl-ələ, dil-dilə verib bir yumuruq kimi Ali Baş Komandanımızın ətrafında sıx birləşməklə Onun komandası əsasında azad edəcəyik!İnşəAllah!

Son olaraq qeyd etmək istəyirəm ki, bu yaxınlarda Hatəm Cabbarlının ad günü, 50 illik yubileyi olub, mən bu yubiley münasibəti ilə yubilyarı ürəkdən təbrik edir, uzun ömür, sağlam can işində bol uğurlar arzulayıram.

***24.12.2019.***
***saat 00-05.***



*Sevindik NƏSİBOĞLU*

Kredo 2020.- 6 mart.- S.9.